Ədəbiyyat QƏZETİ
1 may / 2021

# Müslüm Mahir HİKMƏT - 70



Hörmətli Müslüm müəllim!

Sizi - tanınmış şairi 70 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz ədəbiyyata keçən əsrin 60-cı illərində gəlmisiniz. İlk şeirlərinizlə orta məktəbdə oxuyarkən, 1966-cı ildən isə davamlı olaraq "Azərbaycan pioneri" qəzetində, "Pioner" jurnalında, radionun "Ulduz" verilişində və Ağdaş rayonunun "Əmək" qəzetində müsabiqələrin qalibi kimi ədəbi fəaliyyətə başlamısınız. Şeirlərinizlə və "Dürrilər" adlandırdığınız fəlsəfi fraqmentlərinizlə "Palitra", "Paritet", "Həftə", "Səhifələr", "Oxu məni", "Milli birlik", "Cəmiyyət və ekologiya", "Üfüq", "Horizont" qəzetlərində, "Molla Nəsrəddin", "Yeni iqtisadiyyat", "Audit və uçot", "Vergi xəbərləri", "Ulduz", "Azərbaycan", "Xəzər-xəbər", "Qanun", "Elm və həyat" jurnallarında ardıcıl olaraq çap olunmusunuz. İxtisasınız maliyyə-kredit işi olsa da, Jurnalistika Sənətkarlığı İnstitutunu bitirərək, poeziya ilə yanaşı, aforistika janrında fəlsəfi esselərlə çıxış etmisiniz. Siz Azərbaycanın ən böyük müəssisələrindən biri olan "İqlim" Birliyində məsul vəzifələrdə işlədiyiniz 22 il ərzində görkəmli şair və yazıçıların müəssisə kollektivi ilə ədəbi görüşlərinin keçirilməsinin təşəbbüskarı və təşkilatçısı, təbliğatçısı olmusunuz. Siz bir çox almanaxlarda - "Vətən səsi", "Dan ulduzu", "Ürəklərdə ucalan abidə" və s. çıxış etməklə yanaşı, ilk şeirlər kitabınızı - "Dastanlara sığmayan ömür"ü oxuculara təqdim etmisiniz. "Zəfərnamə", "Açılmamış xəzinə" şeir kitablarının müəllifisiniz. Yaradıcılığınızda əhəmiyyətli yer tutan fəlsəfi esselərinizin, dürrilərinizin və aforistik ifadələrinizin bir qisminin toplandığı "Sosial həyatın ensiklopediyası" kitabınız oxucular tərəfindən maraqla qarşılanmışdır.

Siz iki dəfə Azərbaycan Sərhəd Xidmətinin və Azərbaycan Yazıçılar Birliyinin birgə təşkil etdiyi müsabiqənin mükafatına layiq görülmüsünüz. Azərbaycan Yazıçılar Birliyi Həmkarlar İttifaqının 8 Mart Beynəlxalq Qadınlar gününə həsr olunmuş şeir müsabiqəsinin laureatı olmusunuz. Azərbaycan Milli Elmlər Akademiyasının nəşri olan "Elm və həyat" jurnalında son illərdə silsilə fəlsəfi esselərinizin çap olunması sizin fəlsəfə sahəsində uğurlarınızın ifadəsidir.

Hörmətli Müslüm müəllim!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, uzun ömür və cansağlığı, yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**